*6-cı Beynəlxalq Musiqi Festivalı*

# Milli Konservatoriyada "Muğam hekayətləri"

**Dünən "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert proqramı Azərbaycan Milli Konservatoriyasında təşkil olunub.**



"Muğam hekayətləri" layihəsi adlandırılan konsertdə Azərbaycanın tanınmış xanəndəsi Xalq artisti Teyyub Aslanov və caz pianoçu Nicat Aslanov çıxış ediblər. Təqdimatda ifaçıları tarda Əliağa Sədiyev, kontrabasda Ruslan Hüseynov, zərb alətlərində Tofiq Cabbarov və Həsən Bilalov müşayiət ediblər. Proqramda dinləyicilərə Azərbaycan muğamlarının modern caz musiqisi ilə sintezi təqdim olunub. Musiqi nömrələri böyük maraqlq qarşılanıb.

Konsertdən əvvəl media üçün açıqlama verən tanınmış xanəndə Teyyub Aslanov festival barədə öz təəssüratlarını bölüşüb:

– Çox qürurvericidir ki, artıq neçə illərdir belə gözəl layihələr həyata keçirilir. Bütün təşkilatçılara, başda Heydər Əliyev Fondu olmaqla, həmçinin Mədəniyyət Nazirliyinə bu təşəbbüsə görə təşəkkürümüzü bildiririk. Festival çərçivəsində yüksək səviyyədə muğam müsabiqəsi də keçirildi. Bu gün isə burada muğamla cazın möhtəşəm sintezini təqdim edirik.

"Qədim Musiqi Alətləri" Dövlət Ansamblının solisti, xanəndə, Xalq artisti Teyyub Aslanov 1995-ci ildən bəri Azərbaycan muğam üçlüyü və müxtəlif ansamblların tərkibində bir çox xarici konsert və festivallarda iştirak edib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, muğam sənəti kafedrasının müdiridir. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano fakültəsinin məzunu Nicat Aslanov isə istedadlı caz ifaçısıdır. O, cazın müxtəlif janrlarında maraqlı kompozisiyalar təqdim edir. İfaçının ilk konserti 2012-ci ildə Bakı Caz Mərkəzində olub. İstedadlı cazmen bir çox yerli, eləcə də xarici konsert və festivallarda uğurla çıxış edib.

Xatırladaq ki, iyunun 18-dən başlayan "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

**"Xalq qəzeti"**